# «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı»nın təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı» təsdiq edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının gömrük orqanlarının ali rəis heyəti üçün nəzərdə tutulan vəzifələr və bu vəzifələrə uyğun xüsusi rütbələrin Siyahısı» (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №1, maddə 22) qüvvədən düşmüş hesab edilsin.

3. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 10 dekabr 2004-cü il***

***№ 155***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (11 dekabr 2004-cü il, № 287) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2004-cü il, № 12, maddə 1001) («VneshExpertService» LLC).***

***2 dekabr 2008-ci il tarixli, 28 nömrəli; 14 iyul 2010-cu il tarixli, 298 nömrəli; 21 yanvar 2011-ci il tarixli, 374 nömrəli Fərmanlara əsasən dəyişikliklə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2004-cü il 10 dekabr tarixli*
*155 nömrəli Fərmanı ilə*
*təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının gömrük orqanlarında

# ali xüsusi rütbəli vəzifələrin

# Siyahısı

| **Vəzifənin adı** | **Vəzifəyə görə müəyyən olunmuş ali xüsusi rütbə** |
|---|---|
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mərkəzi aparatı** | |
| Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri | Azərbaycan Respublikasının həqiqi dövlət gömrük xidməti müşaviri |
| Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | gömrük xidməti general-polkovniki |
| Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini | gömrük xidməti general-leytenantı |
| *Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri* | gömrük xidməti general-leytenantı |
| Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının Baş İdarə rəisi | gömrük xidməti general-mayoru |
| Bakı Baş Gömrük İdarəsinin rəisi | gömrük xidməti general-mayoru |
| Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi | gömrük xidməti general-mayoru |
| *Sumqayıt Baş Gömrük İdarəsinin rəisi* | *gömrük xidməti general-mayoru* |
| «Azərterminalkompleks» Təsərrüfat Hesablı Xarici İqtisadi Birliyinin direktoru | gömrük xidməti general-mayoru |
| Tədris mərkəzinin rəisi | gömrük xidməti general-mayoru |
| *Tibbi Xidmət İdarəsinin rəisi* | *tibb xidməti general-mayoru* |